BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2005

# ERKƏN ORTA ƏSRLƏRDƏ MÜSƏLMAN ŞƏRQİNİN ŞİMALLA ƏLAQƏLƏRİ MƏSƏLƏLƏRİ V.V.BARTOLDUN TƏDQİQATLARINDA
## («Ruslar haqqında ərəbdilli məlumatlar» məqaləsi əsasında)

**R.Ş.ŞAHBAZOVA**

Orta Asiyanın, Qafqazın və Şərqi Avropanın tarixinin tədqiqi V.V.Bartoldun çoxtərəfli elmi fəaliyyətinin mühüm hissəsini təşkil edir. Bununla bağlı V.V.Bartold özü «Tərcümeyi-hal»ında yazır: «Mənə belə gəlir ki, Rusiya üçün coğrafi və tarixi baxımdan daha yaxın olan və Qərbi Avropa alimi ilə müqayisədə rus aliminin daha çox material tapa bildiyi vilayətlərin rus şərqşünası tərəfindən öyrənilməsi təbiidir» (11,s.5).

Adı çəkilən akademikin tədqiqatlarının elmi dəyəri barədə çox yazılmışdır, lakin bu tədqiqatların xüsusi, səciyyəvi bir cəhəti üzərində dayanmağı vacib bilirik: hansı bölgənin olursa-olsun, tədqiqi gedişində rastına çıxan mənbələri V.V.Bartold *hərtərəfli* araşdırır və mənbədəki, demək olar ki, *bütün materialı* istifadəyə cəlb edir. Ona görə də, bu tədqiqatlar şərqşünaslıq elminin bütün sahələri üçün dəyər kəsb edir.

«Ruslar haqqında ərəbdilli məlumatlar» adlı məqaləyə gəlincə, 1918-ci ildə yazılmış məqalə məlum bölgənin bütün xalqlarının erkən orta əsrlər tarixi, xüsusilə Şimal-Cənub əlaqələrinin tarixi üçün maraqlı icmal səciyyəsi daşıyır. Məqalə ilk dəfə 1963-cü ildə V.V.Bartoldun «Seçilmiş əsərləri» silsiləsinin II cildinin birinci hissəsində dərc olunmuşdur (3,s.810-858). Uzun müddət müəllifin qaralaması şəklində saxlanılan məqalənin bəzi şərhləri bu nəşrin redaksiya heyəti tərəfindən verilmişdir.

V.V.Bartoldun adı çəkilən məqaləsinə müraciət etməyimizin bir neçə səbəbi var: 1) hər bir elmi problemin araşdırılması, müəyyən ənənələrə, sələflərin əməyinin nəticələrinə söykənməlidir; müsəlman Şərqinin şimalla əlaqələri problemi isə müxtəlif vaxtlarda A.Şaxmatov (12), A.Validov (4), M.Artamonov (2), Z.Bünyadov (1), A.Minorskiy (14), A.Yakubovskiy (13), V.Zaxoder (6;7), N.Vəlixanlı (5) kimi şərqşünasların əsərlərinin tədqiqat obyektlərindən olmuşdur. Bu məsələyə təkrar qayıdan hər bir tədqiqatçı özündən əvvəlkilərin araşdırmalarını, xüsusilə onların ən dəyərli tərəflərini üzə çıxarmağa borcludur; 2) Yuxarıda qeyd olunduğu kimi, V.V.Bartold bu və ya digər məsələni araşdırarkən, mənbələrdəki məlumatlardan maksimum istifadə edir; adı çəkilən problemlə bağlı araşdırması isə böyük sayda ərəbdilli mənbəni elmi döv-

riyyəyə cəlb etməsi ilə seçilir; 3) məqalədə qaldırılan bir çox məsələlər, o cümlədən Orta Asiyanın və ümumilikdə islamın Rusa təsiri, bölgənin etnik tərkibi, rusların mənşəyi, etnoqrafiyası, Bizans-Rus siyasi əlaqələri, rus yürüşlərinin xarakteri, Şimal-Cənub, o cümlədən Baltik-Qara dəniz, Baltik-Xəzər dənizi ticarəti kimi məsələlər tarixşünaslıqda aktuallığını itirməmişdir.

V.V.Bartold adı çəkilən məqaləsinin xronoloji çərçivəsini e.ə. V əsrdən eramızın IX əsrinin ortalarınadək götürsə də, əsas diqqəti IX və X əsrlərin hadisələrinə yönəltmişdir. V.V.Bartoldun bu seçimi təbiidir, çünki, əvvəla, onun əsas mənbələri IX-X əsrlərin ərəbdilli mənbələridir; ikincisi isə tədqiqat obyekti olaraq seçimiş əlaqələrin inkişafı da bu dövrə təsadüf edir. Antik müəlliflərə müraciət olunmasına gəlincə, şərqşünas bunu, erkən orta əsrlərdə məlum bölgələrin siyasi, etnik tarixinə ekskurs məqsədilə etmişdir.

V.V.Bartoldu bir tarixçi olaraq düşündürən əsas məsələ – IX və X əsrlərdə Rusun gələcəyinin təyini məsələsidir. Müəllif bununla bağlı olaraq yazır: «IX-X əsrlərdə Rusun gələcəyi haqqında məsələ dərhal formalaşmadı; müəyyən mərhələdə belə görünə bilərdi ki, rus xalqı Orta Asiya dövlətçiliyinin və müsəlman mədəniyyətinin təsirinə tabe olacaq» (3, s.811). Məqalənin bütün məğzi də bu variantın həyata keçə bilməməsinin səbəbləri üzərində qurulub. Diqqət, ilk növbədə, Qara dəniz və Baltik dənizi hövzələri arasındakı əlaqənin dərəcəsinin müəyyən edilməsinə yönəldilmişdir. V.V.Bartoldun fikrincə, bu iki dənizə tökülən çayların mənbələri bir-birinə yaxın olsa da, IX əsrədək «hər iki hövzə öz həyatı ilə yaşamışdır», özü də bu, antik dövr ənənələrinə bağlanır (3, s.811). İstisna olaraq, eramızın II əsrinin sonunda baş verən hadisələri nümunə gətirmək olar: həmin dövrdə qot tayfalarının Baltik dənizindən Qara dəniz sahillərinə hərəkəti, Dnepr sahillərində Qot dövlətinin qurulması, IV əsrdə isə həmin dövlətin hunlar tərəfindən darmadağın edilməsi baş verir. Hun dövlətinin süqutundan sonra (V əsr), qotlar «Avropanın üç cənub yarımadasında qüdrətini bərpa edərək fateh rolunda çıxış edir» (3, s.812). İlk baxışdan belə görünə bilərdi ki, Baltik-Qara dəniz əlaqələri üçün imkanlar yaranmışdı; lakin problem onda idi ki, Baltikdən gələn qotlar şimalla bütün əlaqələrini itirmişdilər!

V.V.Bartold haqlı olaraq göstərir ki, Baltik dənizi bölgəsinin və Qara dəniz sahillərinin Aralıq dənizi ilə geniş əlaqələrinin olmasına baxmayaraq, bu əlaqələr də onların arasındakı «ayrılığı» aradan götürə bilməmişdi (3, s.812). Orta əsrlərin başlanğıcında, «Xalqların böyük köçü» ərəfəsində və gedişində müəyyən dəyişikliklər baş verir: Orta Asiyadan Avropaya köçəri xalqların böyük bir hərəkəti Cənubi Rus çöllərinin Şərqlə ticarət əlaqələrinin inkişafı üçün təkan olur (3, s.815), Volqa çayının «İtil» adı alması da IV əsrdən gec baş vermir (3, s.815). Daha sonra – VI əsrin sonu–VII əsrdə xəzərlərin və bulqarların Cənubi Rusda möhkəmlənməsi müşahidə edilir.

Beləliklə, V.V.Bartold qədim dövrdən mövcud olan Orta Asi-

ya – Qara dəniz ticarət yoluna Volqa və Kama vasitəsilə Baltiк dənizinin də qatılmasının dəqiq tarixini qeyd etmir; laкin ticarətin Sasani imperiyasının (III-VII) əsrlər кarvan və dəniz ticarətinin geniş inкişafı ilə əlaqəli olduğunu xüsusi olaraq vurğulayır (3, s.816) və fiкrini təsdiqləməк üçün arxeoloji materialları da işə cəlb edir. Bu məlumatlardan və gətirilən ümumiləşdirilmələrdən belə bəlli olur кi, V.V.Bartold Cənubi Rusun Şərqlə əlaqələrinin başlanğıcını islamdan əvvələ aid edir. Baltiк dənizi hövzəsindən Qara və Xəzər dənizləri hövzəsinə üzən sкandinaviyalıları rus salnaməçiləri «varyaq» və «rus» adlandırsa da, V.V.Bartold bu anlayışları ayırmağı təкlif edir. O, qeyd edir кi, **rus** anlayışı şimaldan cənuba, **varyaq** anlayışı isə cənubdan şimala yayılmışdır (3, s.817). IX-X əsrlərin müsəlman müəlliflərinə gəlincə, onlar yalnız «ruslar»ı tanıyırdılar və «sкandinaviyalıların Atlantiк oкeanı sahillərinə yürüşlərini də rusların adına çıxarırdılar (3, s.817). Ərəblərə «rus» anlayışının gəlib çıxmasını isə V.V.Bartold türкlərlə (кonкret bulqarlarla) deyil, yunanlarla bağlayır (3, s.817-818). 1929-cu ilin noyabrında SSRİ-nin «Rusiya-Bizans кomissiyası»nda oxuduğu məruzəsində V.V.Bartold bununla bağlı qeyd edir кi, «Baltiк-Xəzər yolu islamın ilк əsrlərində də əhəmiyyətini saxlamışdı, laкin ərəb ədəbiyyatına ruslar, o zamanlar isə hələ normanlar haqqında ilк məlumatlar, çox güman кi, slavyanlarla və ruslarla ticarət aparan xəzər və bulqar tacirlərindən yox, Bizansdan gəlmişdir, «slavyanlar»ı bildirən (saqləb) sözünü də ərəblər yunanlardan əxz etmişlər» (3, s.818-819, qeyd 13).

Rusların mənşəyi məsələsi məqaləmizin obyeкti olmadığından, biz V.V. Bartoldun bununla bağlı mülahizələrini müzaкirə etməк niyyətində deyiliк. Laкin rus tacirlərinin fəaliyyəti və rus yürüşləri ilə əlaqəli bir neçə məsələnin üzərində dayanmaq məqsədəuyğun olardı: X əsrin rus yürüşlərinin tarixi üzrə əsas mənbə əl-Məsudidirsə (X əsr), birinci məsələnin ən erкən əкsi İbn Xordadbehdədir (IX əsr). Bu səbəbdən V.Bartold bu müəlliflərin məlumatlarını çox böyüк diqqətlə nəzərdən кeçirmişdir. İbn Xordadbeh «Kitab əl-məsaliк» əsərində «rus tacirləri» haqqında xüsusi məlumatlar verir (8, s.123-124). V.V.Bartold isə İbn Xordadbehin əsərindəкi bu hissəni «qəribə bir əlavə» hesab edir (3, s.826). V.V.Bartoldun bu mülahizəsi V.V.Rozen tərəfindən də dəstəкlənmişdir (9, s130), V.P.Zaxoder isə bu «əlavə»ni məlum ticarətdə böyüк rol oynayan yəhudi tacirlərin slavyan dilini bilməsi ilə izah edir (7, s.85-85). Laкin Azərbaycan tarixçisi N.M.Vəlixanlı bu hissənin, müəllifin özü (İbn Xordadbeh) tərəfindən əlavə olunduğunu qeyd edir (5, s.38-39).

Əslində V.V.Bartold da dolayısıyla rus tacirlərinin marşrutu ilə bağlı İbn Xordadbehdəкi məlum xəbərləri təsdiqləyir. Belə кi, 1926-cı il məruzəsində şərqşünas qeyd edir: «Slavyanlar və ya ruslar yunanlarla Qara dənizin yalnız şimal sahilində ticarət aparırdılar və Bizansa getmirdilər; daha sonra onlar xəzərlərə mənsub olan Tmutaraкana gəlir, Azov dənizi və Don ilə üzərəк qayıqlarını Vol-

qaya gətirir, Volqa ilə Xəzər dənizinə üzürdülər» (3, s.826, qeyd 23).

Rusların cənuba hərəkətini və onların Dneprdə möhkəmlənməsini V.V.Bartold xəzərlərə qarşı düşmənçilik münasibəti kimi qiymətləndirir (3, s.827). Eyni zamanda o, X əsrə aid edilən bu yəhudi sənədində (bax: 10) «Xalevqu» (Oleq) adı ilə məlum olan «rus çarı»nın xəzərlərlə müharibəni Bizans imperatoru Roman Lakapinin (920-944) təkidi ilə apardığını mümkün sayır və bir hadisənin yalnız 911-ci ildən sonra, yəni ruslarla yunanlar arasında müqavilə bağlanmasından sonra baş verdiyini qeyd edir (3, s.827-829). Bundan əlavə V.V.Bartold X əsrin 40-cı illərində rusların Xəzər dənizi bölgələrə yürüşlərini də yunanlarla bağlayır (3, s.829), daha doğrusu, knyaz İqorun 941-ci ildə Bosfora uğursuz yürüşündən sonra, rəhbərliyi altında olan varyaq və rus donanması üçün yeni qənimət obyekti kimi, Bərdəni seçdiyini göstərir (3, s.846-847).

Rusların Volqada və Xəzər dənizində apardığı ticarət haqqında bəzi xəbərlər X əsrin müəllifi İbn Havqəlin də əsərində var və V.V. Bartold bu məlumatlara böyük yer ayırır (3, s.848-851). Elə buradaca şərqşünas, knyaz Svyatoslavın bölgədəki müharibələrinin xarakteri məsələsinə toxunaraq yazır: «Svyatoslavın müharibələri artıq talan məqsədilə deyil, işğal üçün həyata keçirilmişdi. İtili və Səməndəri ələ keçirən ruslar müsəlman vilayətlərinin sahilboyu məntəqələrinə hücumlar etmədilər... Lakin gözlənilmədən ruslar işğal etdikləri torpaqları tərk edib Balkan yarımadasını fəth etməyə yollandılar» (3, s.851). V.V.Bartoldun fikrincə, ruslar Volqada möhkəmlənməklə, heç şübhəsiz, müsəlman mədəniyyətinin təsirinə məruz qalacaqdılar, Balkanlara istiqamət almaları isə Bizans təsirini gücləndirdi (3, s.851).

Beləliklə, adı çəkilən məqalənin əvvəlində araşdırılan ən mühüm məsələ – Rusun gələcəyinin IX-X əsrlərdə təyini məsələsi V.V.Bartold tərəfindən özünəməxsus həllini tapmışdır.

## ƏDƏBİYYAT


1. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989.
2. Артамонов М.И. История Хазар. Ленинград, 1962.
3. Бартольд В.В. Арабские известия о русах. – Сочинения, т.II ч.I, Москва, 1963.
4. Валидов А.З. Мешхедская рукопись Ибну-ль-Факиха // Иран, сер. VI, т. XVIII, 1924.
5. Велиханова Н.М. О торговых путях купцов русов и купцов иудеев ар-Разани // Ибн Хордадех. Книга путей и стран. Пер. с араб., комм., иссл., указ и карты Н.Велихановой. Баку, 1986.
6. Заходер Б.Н. Из истории волжско-каспийских связей древней Руси // СВ, 1955, №3.
7. Заходер Б.Н. Каспийский свод сведений о Восточной Европе. т.II. Москва, 1962.
8. Ибн Хордабех. Книга путей и стран. Пер. с араб., комм., иссл., указ и карты Н.Велихановой. Баку, 1986.
9. Известия ал-Бакри и др. авторов о Руси и славянах, ч.1. СПб., 1878 (прилож. к

ЗИАН, т.32, №2).
10. Коковцев П.А. Европейско-хазарская переписка X в. Ленинград, 1932.
11. Предисловие к статье В.В.Бартольда «Арабские известия о русах» - Сочинения, т. II, ч.I, Москва, 1963.
12. Шахматов А.А. Древнейшие судьбы русского племени. Пг., 1919.
13. Якубовский А.Ю. О русско-хазарских и русско-кавказских отношениях в IX-X вв. // ИАН СССР, СИФ, т.3, 1946, №5.
14. Minorsky V. Studies in Caucasian history. London, 1953.

## ВОПРОСЫ ИЗУЧЕНИЯ СВЯЗЕЙ МУСУЛЬМАНСКОГО ВОСТОКА С СЕВЕРОМ В ИССЛЕДОВАНИЯХ В.В.БАРТОЛЬДА

**(на основе статьи «Арабские известия о русах»)**

**Р.Ш.ШАХБАЗОВА**

### РЕЗЮМЕ

В статье говорится об исследованиях академика В.В.Бартольда, посвящённых связям мусульманского Востока с Севером, в период раннего средневековья. Подчёркивается роль, уделённая определению места русских владений и Кавказа в регионе Севера и Юга. Отмечается большая заслуга академика В.В.Бартольда в исследовании этих связей.